**Xalq qəzeti.** - 2022.- 3 noyabr. - № 241. - S. 9.

# Bakının sulu və susuz bulaqları

## Xırda görünsə də

**Anar Turan**

**Bulaqlar dedikdə, ilk növbədə ana təbiətin qoynu – meşələr, dağların ətəyi, qaya dibində olan çeşmələr yada düşür. Sərin suyu içilən, çağlayıb axan, axıb çaylara qarışan bulaqlar o yerlərin yaraşığıdır. Amma şəhərlərdə də bulaqlar olur və düzəltmə novları, bər-bəzəyi ilə parkların, xiyabanların ümumi ansamblını rövnəqləndirir.**

Bakıda da belə bulaqlar var. Bəs, görəsən onların vəziyyəti necədir? Şəhərə ekskurs edərək bunu aydınlaşdırmağa qərar verdik.

Müxtəlif illərdə paytaxtımızda parklarda, məhəllələlərdə süni bulaqlar çəkilərək şəhəri gəzən insanların içməli suya ehtiyacını ödəməyə xidmət edib.

Bəli, Bakıda son illər çox gözəl, füsunkar parklar var. Köhnələri restavrasiya olunub, təzələri salınıb. Məsələn, İçərişəhər metro-stansiyası yaxınlığında illərdir mövcud olan bir bulaq var. Bir neçə kranı olan bu bulaq həm arxitektura, həm də bolsulu olması baxımından diqqət çəkir. Kaş ki, şəhərimizin hər tərəfində bu cür bulaqlar olaydı. Amma bəzən gördükləri adamı məyus edir. Baxırsan ki, kifayət qədər böyük əraziyə malik parklar salınır və ya yenicə təmirdən çıxır, içində işıqlı fontanlar quraşdırılır. Amma ovucuna doldurmağa bir içim su tapa bilmirsən. Məcbur olub ya mağazaya üz tutursan, ya da evə qayıdırsan.

Keçmişdə hamının Basin küçəsi kimi tanıdığı indiki Füzuli küçəsində böyük park salınıb. Uzunluğu 2 kilometrdən çoxdur, parkın böyük yeraltı qarajı da mövcuddur. Hər baxımdan uğurlu layihədir. Amma park-bağ-fəvvarələr kompleksi adlanan bu ərazini yarım saat o baş-bu başa gəzdik, bir bulaq belə qarşımıza çıxmadı ki, suyundan içək. Heydər Əliyev Sarayının qarşısındakı ulu öndərin heykəlinin də olduğu parkda cəmi bir bulaq var ki, oradan su gəlmir. Hətta deyərdim ki, bulağın içi siqaret çəkənlər üçün külqabıya çevrilib. Eyni mənzərəni 9-cu mikrorayonda yerləşən Zərifə Əliyeva adına parkda da müşahidə etmişdik. Dəqiqləşdirmək üçün bir də ora yollandıq. Gördüyümüz mənzərə isə yumşaq desək, heç xoş deyildi. Beş süni bulaqdan birinin də suyu gəlmir. Belə böyük ərazisi olan parkda içməyə su yoxdur.

Gəlirik şəhərin mərkəzinə, akademik Milli Dram Teatrının qarşısına. Vaxtilə burada bulaq var idi, yenə bu bulaqlar mövcuddurmu, deyə maraqlandıq. Amma, nə fayda… Bulağa oxşayan bir şey tapa bilmədik. Sakinlərin bildirdiyinə görə, vaxtilə burada mövcud olan iki bulaq artıq yoxdur. Əvəzində isə parkın içində “lövbər” salmış böyük çayxana və pivəxananı göstərdilər.

Bulaq axtarışı ilə gəldiyimiz Fəvvarələr bağında fontanlar göz oxşayırdı, səliqə-səhman vardı. Nə qədər olmasa, şəhərin mərkəzidir axı. Amma burada da təşnə könüllər üçün bir bulaq belə yoxdur. Elə bu dəmdə gördük ki, bir neçə əcnəbi tələbə fontanda əlini yuyur. Əlbəttə, burada bulaq olsaydı, xaricdən gələnlər də, özümüz də həm əllərimizi yuyardıq, həm də su içərdik.

Müşahidələrimizi davam etdirərək gəlib çatırıq, elə düz redaksiyamızın yaxınlığında olan Sahil bağına. Bu parkda əhali sıxlığı digər parklardan çoxdur. Bir tərəfində metro stansiyası, digər tərəfində ali təhsil ocağı, hər tərəfində də hökumət strukturlarına dair inzibati binalar. Park insanla qaynayır, amma yenə bir bulaq gözə dəymir. Belə gözəl bir bağda heç olmasa, bir-iki bulağa ehtiyac var. Yəqin ki, əlaqədar qurumlar bu haqlı qınaq, istək və çatışmazlıqlardan nəticə çıxarar, vətəndaşlarımızın rahatlığını mütləq nəzərə alarlar. Çünki bulaqların olmaması, yaxud suyunun gəlməməsi şəhərimizin vahid ansamblı xatırladan parklı, bağlı, fəvvarəli məkanları ilə heç uzlaşmır.

Dənizkənarı Milli Parkda isə vəziyyət qənaətbəxşdir. Gedib, gördük burada bulaqlar da var, suyu da gəlir. İndi suyun keyfiyyətini dağ bulaqları ilə müqayisə etməsək də, hər halda kranı fırladan kimi, su axmağa başladı. Bu, bizi sevindirdi. Su həyatdır, xüsusilə isti havalarda əvəzolunmaz nemətdir. Ona görə də şəhərimizdə bulvardakı kimi süni bulaqların olmasını istəyirik. Hər halda bu tək bizim yox, bütün şəhər sakinlərinin, xarici qonaqların ümdə istəyidir!

Belə yerdə mərhum şairimiz Zəlimxan Yaqubun misraları yadımıza düşdü:

Elə bulaq dedim, bulaq eşitdim,  
Nə var bu dünyada bulaqdan gözəl.  
Axdı ürəyimə, axdı qəlbimə,  
Yaxından yanğılı, uzaqdan gözəl.